**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 27 iyul tarixli, 131 nömrəli qərarı ilə təsdiq edilmişdir**

**1 nömrəli Əlavə**

**Azərbaycan Respublikası ədliyyə orqanları işçilərinin geyim formalarının verilmə**

## Qaydaları

1. Bu Qaydalar «Azərbaycan Respublikasının ədliyyə orqanları işçilərinin fərqlənmə nişanları və geyim formasının təsvirinin təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 28 sentyabr tarixli, 241 nömrəli Sərəncamına əsasən ədliyyə orqanları işçilərinin geyim formalarının verilməsi qaydalarını müəyyən edir.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi «Ədliyyə işçilərinin xüsusi rütbələri haqqında Əsasnamə»yə uyğun olaraq, rütbə dərəcələri olan ədliyyə orqanları işçilərini geyim forması ilə təmin edir.

3. Ədliyyə orqanları işçilərinin geyim formaları dövlət büdcəsindən Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə ayrılmış vəsait hesabına verilir.

4. İşçilərin geyim formaları ilə zəruri miqdarda və ölçülər üzrə təmin olunması üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin mərkəzi aparatının maliyyə-təsərrüfat xidməti, Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin tabeliyində olan digər təşkilatların rəhbərləri, habelə müvafiq məhkəmə sədrləri Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin rəhbərliyi qarşısında vəsatət qaldırırlar. Bu vəsatətə əsasən, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi qanunvericiliklə müəyyən edilmiş qaydada geyim formalarının və fərqləndirici nişanlarının (paqonlar, emblem, ulduzlar və düymələr) hazırlanması və alınması üçün sifariş verir. Sifariş üzrə hesablaşmalar köçürmə yolu ilə həyata keçirilir.

5. Nazirlik geyim formalarını və fərqlənmə nişanlarını müvafiq müəssisələrdən aldıqdan sonra onları ədliyyə orqanları işçilərinə müəyyən olunmuş qaydada təqdim edir.

6. Ədliyyə orqanının işçisi təsdiq olunmuş geyim formasına uyğun olaraq onu fərdi qaydada sifariş edə bilər. Belə hallarda işçiyə Ədliyyə Nazirliyi tərəfindən formanın tikilməsi və alınması üçün yalnız nağdsız qaydada pul ayrılır, furajka və fərqləndirici nişanlar isə yalnız Ədliyyə Nazirliyinin sifarişi əsasında hazırlanır.

7. Ədliyyə orqanları işçilərinin geyim formaları predmetlərinin qeydi, işçiyə geyim formaları və ya nağd pul vəsaitlərinin verildiyi gündən, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin maliyyə-təsərrüfat xidməti tərəfindən müəyyən olunmuş qaydada aparılır.

**Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2000.- 31 iyul, № 7.- S. 3059-3060.**